# Prokurorluq işçilərinin peşə bayramı qeyd edildi

Hər il oktyabr ayının 1-i prokurorluq orqanlarının peşə bayramı günüdür. Rayon prokurorluğunun işçiləri həmin gün özlərinin peşə bayramını və Azərbaycan prokurorluğunun 95-ci ildönümünü qeyd etmişlər. Bu şərəfli bayram tədbirində rayonun hüquq mühafizə orqanlarının rəhbərləri də iştirak edirdilər.








Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov iştirak edirdi. Prokurorluq işçiləri və tədbir iştirakçıları Heydər Əliyevin abidəsi önünə gəldilər. Rayon prokuroru Məqsəd Orucov prokurorluq işçiləri adından ulu öndərin abidəsi önünə əklil qoydu və dahi şəxsiyyətə öz ehtiramını bildirdi. Tədbir iştirakçıları da abidə önünə tər güllər düzdülər və ulu öndərin xatirəsini yad etdilər.

Prokurorluq işçiləri buradan Heydər Əliyev mərkəzinə gəlmişlər. Onlar mərkəzdə əvvəlcə ulu öndərin büstü qarşısına tər güllər qoydular və onun əziz xatirəsini hörmət və ehtiramla yad etdilər. Sonra ümummilli liderin keçdiyi şərəfli həyat yolunu və fəaliyyətini əks etdirən stendlərlə tanış olmuşlar.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Ahıllar günündə

Oktyabr ayının 1-də rayonumuzun ahılları şəhərin mərkəzindəki Heydər bağına toplaşmışdılar. Əvvəlcə onlar Heydər Əliyevin abidəsi önünə gələrək abidə önünə tər güllər qoydular və böyük şəxsiyyətin əziz xatirəsini yad etdilər.



Ahıllar buradan rayonda son vaxtlar görülən abadlıq-quruculuq işləri və yeni istifadəyə verilmiş müəssisələrlə tanış olmaq üçün ekskursiyaya aparıldılar.

Axırda ahıllar rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayevin rəhbərliyi ilə «Qəbələ» hoteldə şirin çay stolunun arxasında toplaşdılar. Burada müstəqil Azərbaycan dövləti tərəfindən ahıllara göstərilən qayğılardan söhbət açılmışdır. Eyni zamanda ahıllar söhbət zamanı ölkə Prezidenti İlham Əliyevin siyasi xəttini bəyəndiklərini və onlara daim göstərilən qayğıdan razı qaldıqlarını bildirmişlər.

**Oqtay MƏMMƏDOV.**
**Foto S. Umuyevindir.**

# Prezident seçkilərini izləmək üçün 40 minə yaxın müşahidəçi qeydiyyatdan keçmişdir

Oktyabrın 9-da Azərbaycanda keçiriləcək Prezident seçkilərini izləmək üçün 40 minə yaxın müşahidəçi qeydiyyatdan keçmişdir. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun Müstəqil Mətbuat Şurasının iclasında jurnalistlərə verdiyi məlumata görə eyni zamanda prosesi Avropa Şurası, Avropa Şurası Parlament Assambleyası, ATƏT, ATƏT Parlament Assambleyası, eləcə də AƏTƏT DTJHB, Müstəqil Dövlətlər Birliyi, MDB Parlament Assambleyası, Türkdilli ölkələrin Parlament Assambleyası və 50-yə yaxın digər nüfuzlu beynəlxalq təşkilatdan 1300-ə yaxın müşahidəçi izləyəcəkdir. Beynəlxalq müşahidəçilərin tərkibində 100-ə yaxın ölkənin nümayəndəsi vardır.

**N. ATAKİŞİYEV.**

# Beynəlxalq Müəllim Günü qeyd olundu

Hər il oktyabr ayının 5-də bütün dünyada Müəllim Günü qeyd edilir. Rayonumuzun müəllimləri də öz ənənələrinə sadiq qalaraq bu bayramı daha yüksək səviyyədə keçirirlər. Oktyabrın 4-də müəllimlərimiz öz peşə bayramlarını «Ən yaxşı məktəb» müsabiqəsində qalib çıxan N. Apayev adına şəhər 4 saylı tam orta məktəbin iclas zalında qeyd etdilər.

Bayram tədbirində rayon icra hakimiyyətinin məsul işçisi Zahid Əfəndiyev, rayon təhsil şöbəsi müdirinin müavini İxtiyar Hüseynov, RTŞ-nin metodkabinetinin müdiri Arifə Bayramova, rayonun qabaqcıl müəllimləri, məktəb direktorları, direktor müavinləri və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Müəllim gününə həsr edilmiş təntənəli mərasimi məktəbin müəllimi Vəfa İbrahimova giriş sözü ilə açdı və o, rayonun bütün təhsil ocaqlarında çalışan müəllimləri Beynəlxalq Müəllim Günü münasibətilə təbrik etdi.

Təntənəli mərasimdə söz alan 4 saylı tam orta məktəbin direktoru Qəşəngi Musayeva qeyd etdi ki, bu il məktəbimiz üçün ən yaddaqalan təhsil illərindən biridir. Ötən tədris ilində məktəbimiz təhsilin inkişafında qazandığı uğurlara görə cənab Prezidentin sərəncamı ilə «Ən yaxşı məktəb» müsabiqəsinin qalibi elan edilmişdir. O, sonra qeyd etdi ki, məktəbimiz 2012--2013-cü tədris ilini bir sıra yüksək göstəricilərlə başa vurmuşdur. Məktəbdə təlim-tərbiyənin keyfiyyəti yüksəlmiş, təhsilin müvəffəqiyyət faizi artmışdır. Məktəbi bu il bitirənlərin 41 nəfəri yüksək bal toplayaraq müxtəlif ali məktəblərə qəbul olunaraq tələbə hüququnu qazanmışdır. Fərəhli haldır ki, onların 2 nəfəri məktəbimizi qızıl medalla qurtaran məzunlardır. Əlbəttə, qazandığımız uğurlar müəllimlərimizin gənc nəslin təlim-tərbiyəsinə məsuliyyətlə yanaşmasının xüsusi qayğının nəticəsidir. O, sonda peşə bayramları münasibətilə müəllimləri təbrik etdi.



Tədbirdə iştirak edən RİH-nin məsul işçisi Zahid Əfəndiyev rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin adından rayon müəllimlərini Beynəlxalq Müəllim Günü münasibəti ilə təbrik etdi və yeni dərs ilində təhsildə, təlim-tərbiyənin keyfiyyət göstəricilərini daha da yüksəltmək üçün uğurlar arzuladı.O, son illər rayonda təhsilin inkişafında həyata keçirilən tədbirlərdən və qazanılan uğurlardan geniş danışdı.

Rayon təhsil şöbəsi müdirinin müavini İxtiyar Hüseynov və həmin şöbənin metodkabinetinin müdiri Arifə Bayramova çıxış edərək əvvəl rayon müəllimlərini peşə bayramları münasibətilə təbrik etdilər. 2012-2013-cü dərs ilində rayon məktəblərinin qazandığı uğurlardan danışdılar.

Təntənəli mərasimdə çıxış edən digər natiqlər ölkəmizdə müəllim əməyinin nüfuzundan, onlara dövlətin qayğısı və diqqətindən danışmış, işlədikləri təşkilatın adından müəllimləri peşə bayramları münasibətilə təbrik etmişlər.

Tədbirdə bir qrup ən qabaqcıl və təcrübəli müəllimə rayon təhsil şöbəsinin və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsinin Fəxri fərmanı təqdim edilmişdir.

Bayram tədbirinin yüksək səviyyədə keçməsində şəhər incəsənət və musiqi məktəbinin bədii kollektivinin əməyi də qeyd olunmalıdır. Bir-birindən fərqlənən xalq mahnıları, muğamları tədbirdə iştirak edənlərin ruhunu oxşamış və onlarda xoş ovqat yaratmışdır.

**Aslan CƏLİLOV.**